# Cənubi Azərbaycanda milli teatr tarixindən - "Azərbaycan artistlər dəstəsi"...

**"Guney Azərbaycanın tarixi irsi" rubrikasında Azərbaycanın cənubunda yaşanan teatr hadisəsindən söhbət açacağıq. Azərbaycan müsəlman Şərqində teatr yaradan ilk dövlətdir. Yəni ilk teatr məhz bizim ölkədə yaranıb, buradan Şərq və türk elmlərinə yayılıb. Peşəkar teatra, peşəkar səhnəyə sahib olan Azərbaycan çox böyük sənətkarlar yetişdirib. Azərbaycanın şimalında olduğu kimi, cənubunda da teatr yaranmağa başlayıb.**



Amma sonralar həm şimalda, həm cənubda zaman-zaman xalq yaradıcılığından və meydan teatr ənənəsindən qaynaqlanan xalq tamaşaları, səhnələri olub, buna meydan teatrı deyiblər. Bayramlarda, mühüm günlərdə meydanlarda tamaşalar oynanılıb. Cənubi Azərbaycan mədəniyyətimizin ana ocaqlarından biridir və burada zəngin teatr ənənəsi olub.

Baxmayaraq ki, xarici havadarlarının dəstəyi ilə Qacarları devirib hakimiyyəti qanunsuz olaraq qəsb edən Pəhləvilərin, onlardan sonra hakimiyyəti ələ keçirən molla rejiminin təpkilərinə, zülmlərinə baxmayaraq, soydaşlarımız milli teatrımızı yarada və qoruya biliblər.

**"Azərbaycan artistləri dəstəsi"nin fəaliyyəti…**

Tədqiqatçıların yazdıqlarına görə, 1871-1974-cü illərdə M.F.Axundzadənin 6 komediyasının fars dilinə tərcümə edilərək İranda yayılması Cənubi Azərbaycanda teatr sənətinə marağı artırmışdı. İlk teatr 1905-1911-ci illər İran inqilabı dövründə yaradılmışdı. 1909-1921-ci illərdə "Azərbaycan artistləri dəstəsi" fəaliyyət göstərmişdir. Bakıdan Sidqi Ruhulla, Mirzağa Əliyev, Cəlil Bağdadbəyov, Abbasmirzə Şərifzadə, Tiflisdən Mirzəli Abbasov, Məmmədtağı Əsgərov, İbrahim İsfahanlı, Mirzəxan Quliyev, Mustafa Mərdanov, Əşrəf Yüzbaşov müəyyən dəstələrlə, ayrı-ayrı illərdə dəfələrlə Tehranda, Təbrizdə, Rəştdə, Ənzəlidə, Qəzvində, Xoyda, Makuda, Urmuda, Culfada, Ərdəbildə, Salmasda, Ənzəlidə yerli həvəskarları da cəlb etməklə Azərbaycan dilində tamaşalar oynayırdılar. Məlumatlara görə, Təbriz teatrının yaranma tarixi də təxminən o dövrlərə təsadüf edir. Təbriz şəhərində teatr həvəskarlarından Mehdi xan Şəfizadə və Həsən Çörəkçi, doktor Rəhim xan, Ələkbər Bəradərən, Ələsgər xan və Ələkbər xan başda olmaqla on iki nəfər "Xəyanət" adlı tamaşa hazırlayıblar və bu tamaşa 1908-ci ildə göstərilib.

1909-cu ildə böyük teatr sənətçisi Sidqi Ruhulla Təbrizə qastrola gəlib və yerli ziyalılarla birlikdə bir neçə tamaşa hazırlayıb. Onların hazırlayıb tamaşaçılara təqdim etdikləri ilk tamaşa Hüseynqulu Sarabskinin "Cəhalət" əsəri olub. Bu tamaşa fransız katoliklərinin klubunda göstərilib. Bundan sonra nümayiş etdirilən ikinci tamaşa isə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsi olub və "Bağ-meşə qapısı" adlanan məhəllədə yan-yana sıralanmış dükanların üstündəki böyük otaqda oynanılıb. O səfərdə Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", Jan Batist Molyerin "Zorən təbib" əsərləri də göstərilib. Bu qastrollar öz nəticəsini verib. Təbrizdə yerli ziyalılar teatr sənətinə daha böyük maraq göstəriblər.

1910-1919-cu illər ərzində ayrı-ayrı sənətkarlar tərəfindən İrana təşkil olunan qastrollarda daha çox Mirzə Fətəli Axundzadənin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun faciə və komediyaları, Sultanməcid Qənizadənin, Mirmahmud Kazımovskinin, Hüseynqulu Sarabskinin kiçik həcmli ibrətamiz məzhəkələri, Üzeyir bəy Hacıbəyovun, Zülfüqar bəy Hacıbəyovun opera və operettaları və s. oynanılıb.

1920-ci ildə Sidqi Ruhulla, M.Şəfizadə, M.R.Vaizzadə və başqalarının təşəbbüsü ilə Təbrizdə ilk teatr binası - "Xeyriyyə teatrı" tikilir. Orada yaşayan Azərbaycan türklərinin təşəbbüsü ilə Təbriz, Urmiya və Xoy şəhərlərində Ü.Hacıbəylinin məşhur komediyaları tamaşaya qoyulmuşdu.

**"1941-ci ildə Təbrizdə "Azərbaycan" cəmiyyəti yaranıb və teatr truppası da təsis edilib"**

1930-cu ildə Bakı və Tiflis teatrlarında, dövlət teatrlarında rejissorluq və aktyorluq etmiş Mirseyfəddin Kirmanşahlı Irana gələrək üç il ərzində Tehranda və Təbrizdə müxtəlif teatr dəstələrində rejissorluq edib. Təbriz teatrında peşəkarlıq səviyyəsinin formalaşmasında onun da xüsusi əməyi var. Rza Quluzadə Şərqli və Rza Vaizzadənin də bu teatrın inkişafında böyük xidmətləri olmuşdur. Teatr dəstələrində Şərqlinin "Mirzə Rza kirmani", "Cinayət", "Börkün bəlası", "Quqquluqu", "Dəlilər yurdu", "Pul, yoxsa xəyanət" ("Xəyanət və vəfa"), Rza Vaizzadənin "Cəhalət qurbanı", "Tükənməz xəzinə", Mirzə Cabbar Əsgərzadənin "Noi bəşər", "Çadramın mühəssənatı", "Müəllimlər həyatı", Abdulla Fərivərin "Bəhram Çubinə", Hilal Nasirinin "Mirzə Tağıxan Əmir Kəbir" pyesləri tamaşaya hazırlanıb.

Teatrşünas İlham Rəhimlinin Azərbaycan Teatr Tarixi kitabından: "1941-ci ildə Təbrizdə "Azərbaycan" cəmiyyəti yaranıb və teatr truppası da təsis edilib. Truppanın tamaşaçılara təqdim etdiyi ilk tamaşa Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsi olub. İranda ezamiyyətdə olan rejissor Şəmsi Bədəlbəyli truppa ilə sıx yaradıcılıq əlaqəsi saxlayıb, burada bir neçə əsərə səhnə quruluşu verib. Azərbaycan Dövlət Opera və Balet Teatrı 1941-ci il oktyabr ayının əvvəllərindən dekabra qədər Təbrizdə qastrol səfərində olub. Teatrın maraqlı repertuarla çıxışı şəhərin teatr həyatında möhtəşəm canlanma yaradıb. Az sonra ziyalıların cəm olduqları "Azərbaycan cəmiyyəti"nin təşəbbüsü ilə Təbrizdə "Azərbaycan aktyorları heyəti" yaradılıb. Təbrizdə çıxan "Azərbaycan" qəzeti teatr prosesini canlandırmaq və pərakəndə qüvvələri cəmləşdirmək məqsədilə 11 nəfərdən ibarət müdiriyyət heyəti təyin edib. Teatr sənətinə təzə gələn həvəskar aktyorları seçmək üçün içə 9 nəfərdən ibarət komissiya fəaliyyətə başlayıb.

1940-1946-cı illərdə Tehran şəhərində azərbaycanlı teatr fədailəri "Fərhəng-e sinema", "Honər", "Şiri Xurşid" teatr binalarında tamaşalar oynayıblar. Repertuarda Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", Üzeyir bəy Hacıbəyovun bütün operettaları və əksər operaları, Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun kiçik həcmli məzhəkələri əsas yer tutub...".

Milli Hökumət dövründə milli teatrın fəaliyyəti ilə bağlı Vikipediya məqaləsində yazılır ki, Milli hökumət zamanında Təbriz Azərbaycan Dövlət Dram Teatrı yaradılıb və bu teatrın truppasının əsasını müxtəlif truppaların həvəskar aktyorları təşkil ediblər. 8 mart 1946-cı ildə teatrın təntənəli açılışı olub və Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramının tamaşası göstərilib. Təbrizdən sonra 1946-cı ildə Urmiyada da Dövlət Teatrı açılıb. Sərabda, Əhərdə, Astarada, Qara Ziəddində, Ələmdarda, Miyanada, Herisdə, Binabda, Şəbüstərdə, Zəncanda, Marağada, Xoyda dram dərnəkləri fəaliyyətə başlayıb.

1946-cı ilin dekabrında ölkədə milli azadlıq hərəkatına divan tutulduqdan və Milli Hökumətin süqutundan sonra Azərbaycan Dövlət Teatrı da bağlandı. Yalnız qısa bir müddət ərzində (1948-1949) Tehranın "Ziba" teatr salonunda azərbaycanlı incəsənət xadimləri tərəfindən türk dilində bir sıra tamaşa və konsertlər verilmişdir. Həmin tədbirlərin təşkilinə və göstərilməsinə məşhur ziyalı alim, yazıçı Gəncəli Sabahının qardaşı Səməd Səbahi də başçılıq etmişdir.

1970-ci ildə Urmuda "Arya" teatrı yaradılıb və qısa müddətdən sonra bu teatr da bağlanıb. 1950-ci illərin sonlarında və 1960-cı illərin birinci yarısında Tehranda azərbaycanlıların "Mad film", "Azər film" kinostudiyaları fəaliyyət göstərib. Orada çalışan azərbaycanlılar müəyyən bayramlarda teatr tamaşaları da göstəriblər.

Bir vaxtlar Təbriz, Urmiya və Xoy və başqa Cənubi Azərbaycan şəhərlərində ana dilimizdə tetar tamaşaları səhnəyə qoyulsa da, təəssüf ki, bu gün biz buna rast gələ bilmirik. Doğrudur, ayrı-ayrı gənclər ana dilimizdə kiçik səhnələr hazırlayırlar, amma biz Təbrizin mərkəzində açılacaq Azərbaycan Milli Teatrının yolunu gözləyirik. İnanırıq ki, xalqımızın cəsarəti molla rejiminə qalib gələcək və milli haqlarımız təmin ediləcək.

***İradə SARIYEVA***